AZERBAIJAN
INTERNATIONAL

**Sadəcə Uşaqlar Üçün**
**Qırmızı - Rənglər Danışaydı**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 5.2 (Yay 1997)
© 2002. Azerbaijan İnternational




Əgər rənglər danışa bilsəydi, onda Azərbaycanda ən çox danışan rəng qırmızı olardı. Qırmızı rəng xoşbəxtlik, ehtiras, şənlik və həyat rəmzidir. Hətta Azərbaycanın adı belə insana qırmızı rəngi xatırladır, çünki o "Odlar diyarı" deməkdir. Təsəvvür edin, qırmızı alov torpağın içərisindən qıvrıla-qıvrıla çıxır və heç vaxt sönmür. Bu Azərbaycanda yüz illər boyunca yer çatlarından püskürən və torpağın səthinə sızıb keçən qaz olan yerlərdə baş verir. Bu qazlardan yanan alovu söndürmək qeyri-mümkündür. Belə ki, hətta Azərbaycanın torpağı belə qırmızıdır!



Arxeoloqlar 5000 il yaşı olan bir dulusçuluq əşyasında qırmızı boya izi tapmışlar. 2500 il bundan qabaq qədim yunan tarixçisi Herodot qeyd etmişdir ki, insanlar paltarlarını qırmızı rəngə boyamaq üçün Qafqaz meşələrinin ağaclarından alınan maddələrdən istifadə edirdilər. Bu gün azərbaycanlılar hələ də xalçalarında qırmızı rəngdən istifadə edirlər. Bu rəng evlərinin bəzədilməsində onların ən çox sevdikləri rəngdir. İnsanlar qırmızının onları mühafizə etdiyinə inanır.

Qırmızı hazırki Azərbaycan bayrağında olan üç rəngdən biridir. Qırmızı azadlıq deməkdir, amma insanlar çox vaxt azadlıq uğrunda vuruşmalı olduqlarına görə o, qanı

ifadə edir. Bayrağın digər iki rəngi isə yaşıl və mavidir. Mavi rəng səmanı Allah hesab edən qədim türklərlə bağlıdır. Yaşıl rəng isə İslam dininə aiddir.

Azərbaycanlılar qırmızı gül, xüsusilə də qırmızı qızılgül və qərənfil hədiyyə etməyi xoşlayır. Onlar çox vaxt dostlarına qonaq getdikdə gül hədiyyə aparırlar. Gülləri sayın. Onlar həmişə 5 ya 7 kimi tək sayda gül gətirirlər. Avropa və Amerikada olduğu kimi 12 ədəd gül gətirmirlər çünki cüt sayda gül ölüm rəmzi daşıyır. Azərbaycanlılar bir ənənə olaraq vəfat etmiş şəxslərin qəbirləri üzərinə 2 ya 4 kimi cüt sayda gül qoyurlar ki, bu da vəfat etmiş şəxslə ruhən bağlılıq ifadə edir.

Azərbaycanda ilin ən təntənə ilə keçirilən bayramı "yeni il" mənasını verən Novruz bayramıdır. Bayram yaz fəslinin ilk günü başlayır. İldən asılı olaraq bu mart ayının ya 20-si ya da 21-i qeyd edilir. 2 həftə qabaqcadan azərbaycanlılar boşqabda buğda cücərtməyə başlayırlar. Onlar buğdaya qayğı ilə qulluq edir və toxumlara hər gün su verirlər. Toxum cücərməyə başladıqda o, ota bənzəyir. Sonra adətən onu bayramsayağı görünməsi üçün qırmızı lentlə bağlayırlar.

Bundan başqa, Novruzun axır çərşənbəsi oğlanlar küçələrdə tonqallar qalayır və sonra qaçaraq onların üstündən hoppanırlar. Hoppananda çox ehtiyatlı olmalıdırlar ki, ocağın içinə düşüb yanmasınlar. Onlar yeni ili yeni arzular və işlərlə başlamaq üçün keçən ildə baş vermiş pis hadisələrin və şeytan əməllərinin çıxıb getməsini arzu edirlər.

Bəzən ingilis dilində filankəsin "üzü qırmızıdır" və ya "qırmızı üzlüdür" ifadələrini işlədilir. Bu o deməkdir ki, həmin şəxs utanmış və ya xəcalətdən üzü qızarmışdır. Azərbaycanda isə bu ifadə tamamilə başqa hallarda işlənir. Burada "qırmızı" şəxs hətta xətrinə dəyə biləcək dərəcədə həqiqəti üzə söyləyən adama deyirlər. Ancaq Azərbaycanda bu çox kobudluq hesad olunur. İnsanlar başqalarının xətrinə dəyməyi xoşlamırlar.

Qırmızı rəng toylarda da istifadə olunur. Əvvəllər gəlin qırmızı toy paltarı geyinərdi. Bəzi kəndlərdə bu adət hələ də qalmaqdadır. Bakıda gəlinlər ağ gəlinlik paltarı geyinir və onun belinə yaraşıqlı qırmızı ipək lent bağlanır. Bəzən bəy qırmızı qalstuk bağlayır. Qırmızı rəng birlikdə yeni həyatın başlanması mənasını daşıyır.

Qırmızı rəng dəfn mərasimlərində də əhəmiyyətli rol oynayır. Bu gün bir çox qəbirlərdə qırmızı lent və oyuncaqlar görmək olar. Qırmızı rəng ailə qurmadan vəfat etmiş cavan şəxsi ifadə edir. Sanki mərhumun ailəsi vəfat etmiş cavanın qovuşa bilmədiyi "qırmızı" və xoşbəxt həyatı görə bilməsi üçün bunu edir. Bəzən qəbrin üstündə qırmızı lentlə bağlanmış sınmış güzgü də olur. Bu günlər qırmızı rənglə bəzədilmiş qəbir çoxdur, çünki Dağlıq Qarabağ uğrunda müharibədə çoxlu cavanlar həlak olmuşlar.

Jalə Qəribovanın, Gülçöhrə Əliyevanın və Cin Pətersonun bu məqalədə əməyi olmuşdur. Jalə və Gülçöhrə Bakıda, Cin isə Los Ancelesdə yaşayır.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova